# Elmi-tədqiqat Layihələrinin Təqdimatı Elanı

***(Xaricdə müxtəlif təhsil proqramları çərçivəsində təhsil almış məzunlar üçün çağırış)***

## Xaricdə təhsil almış məzunların 3-cü Təhsil Forumu

## “Azərbaycanda təhsilin inkişafı naminə beynəlxalq təcrübəyə əsaslanan yeni yanaşmaların təklif olunması: *mövcud vəziyyət və innovativ təkliflər*”

**Təşkilatçılar (İşçi qrup):** ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyi (AAA), Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi (MTTYM) və Azərbaycan Dillər Universitetinin Amerika Mərkəzi

**Məkan:** Azərbaycan Dillər Universitetinin akt zalı, Rəşid Behbudov küçəsi, 134

**Keçirilmə tarixi**: **20 iyun, 2014-cü il, saat 09.30-16.00**

**Müqəddimələrin göndərilməsi üçün son tarix**: **09 mart, 2014-cü il**

**Tamamlanmış tədqiqat layihələrinin təqdim edilməsi üçün son tarix**: **05 may, 2014- cü il**

**Forumun işçi dili: Azərbaycan dili *(ingilis və rus dillərindən tərcümə təmin olunacaq)***

**Layihənin maliyyələşmə mənbəyi: Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Maliyyə, inzibati və texniki dəstək: Azərbaycan Dillər Universiteti**

***Dəyərli tədqiqatçı məzunlar,***

İşçi qrup adından, Sizi Xaricdə Təhsil almış Məzunların 3-cü Təhsil Forumunda təhsil, bacarıq və təcrübənizi rəhbər tutaraq, Azərbaycanda təhsilin inkişafı naminə *Təhsil Siyasəti (Təhsil strategiyası) üzrə tədqiqat* layihələrinizi təqdim etməyə dəvət edirik.

Forumun əsas məqsədi xaricdə təhsil almış və təhsil sahəsində töhfə vermək istəyən məzunlara dəstəyi nümayiş etdirmək və onları geniş ictimaiyyətə tanıtmaqdır. Bu məqsədlə, İşçi qrup, Azərbaycan Respublikasında təhsil siyasətini müəyyən edən dövlət məmurlarını və təcrübəli mütəxəssisləri məzunlar ilə bir araya gətirərək innovativ ideyaların tətbiqetmə mexanizmini konstruktiv olaraq birgə ərsəyə gətirməyə çalışacaq. İnanırıq ki, qəbul olunmuş tövsiyələr dövlətin təhsil siyasətinin planlaşdırılması və icrası proseslərində qərar qəbuletmə zamanı nəzərə alınacaqdır.

2013-cü ildə təşkil olunan Xaricdə təhsil almış Məzunların 2-ci Təhsil Forumu dəyərli qonaqları, maraqlı müzakirələri və davamlı nəticələri ilə yadda qalan oldu. Foruma digər qonaqlar ilə yanaşı, təhsil naziri cənab Mikayıl Cabbarovun qatılmağı xaricdə təhsil almış məzunların Azərbaycan təhsilinin inkişafına töhfə vermə potensialına yüksək dəyər verməsini nümayiş etdirir. Keçirilmiş Forum, müzakirə olunan təqdimatlar və nəticələr haqqında ətraflı olaraq onlayn ictimaiyyətə çatdırılması üçün AAA tərəfindən təşkilatın internet səhifəsində hazırlanan platformanı da Sizin diqqətinizə çatdırırıq: http://aaa.org.az/index.php/ii-alumni-education-forum

Onu da qeyd etmək lazımdır ki, Xaricdə təhsil almış Məzunların 2-ci Təhsil Forumu haqqında ayrıca məqalə və təqdim olunmuş ən yaxşı iki tədqiqat təqdimatları AAA tərəfindən ABŞ Səfirliyinin maliyyə dəstəyi ilə rüblük nəşr olunan "Context" jurnalında dərc olunmuş və məqsədli şəkildə müxtəlif qurumlara göndərilmişdir ("Context" jurnalı, Azərbaycan və ingilis dillərində səh. 12-17). Tədqiqatların hətta beynəlxalq jurnallarda elmi məqalələr formasında çap olunması üçün müraciət daxil olmuş və tədqiqatçılara istiqamətləndirilmişdir.

Təhsil sahəsində innovativ təşəbbüslərin dəstəklənməsi istiqamətində Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş "İctimai təşəbbüslərin dəstəklənməsi üzrə layihə müsabiqəsi"-nin elan edilməsi və digər layihələr ilə yanaşı Xaricdə Təhsil almış Məzunların 3-cü Forumun həyata keçirilməsi layihəsinin dəstəklənməsi AAA tərəfindən yüksək qiymətləndirilir. Bu bir daha məzun icmasının təhsil məsələlərində fəallığını və Təhsil Nazirliyinin davamlı dəstəyini əks etdirir. Təklif olunan imkandan istifadə edərək, xaricdə əldə etdiyiniz bilik, bacarıq və təcrübənizi Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının reallaşmasına və töhfənizin səmərəli olaraq yayılmasına dəvət edirik.

Müraciətin sonunda nəzərinizə çatdırmaq istəyirik ki, Təhsil Nazirliyi və Azərbaycan Dillər Universitetinin dəstəyi ilə təşkil olunan Xaricdə təhsil almış Məzunların 3-cü Təhsil Forumunda, təqdim olunmuş ən yaxşı 3 tədqiqatçı, moderator və möhtərəm qonaqların rəyləri tərəfindən seçilərək, **500 (beş yüz) AZN** miqdarında hədiyyə ilə mükafatlandırılacaq.

**Gözlənilən nəticələr:**

1. Xaricdə təhsil almış azərbaycanlı məzunlar təhsilin inkişafı naminə töhfələrinin verilməsi üçün yüskək səviyyədə tanınacaq və dəstəklənəcək;
2. Geniş ictimaiyyət üçün təhsil məsələləri müzakirə obyekti olmaqla gündəmə gələcək;
3. Təhsil Forumundan iki həftə sonra dəyirmi masa arxasında Forum zamanı müzakirə olunan ən aktual mövzular seçilərək həmin sahənin aparıcı mütəxəssisləri və tədqiqatçı məzunlar arasında daha yaxından vəziyyəti analiz edib, müzakirə əsaslı təkliflər paketi hazırlamaq imkanı olacaq;
4. Seçiləcək tədqiqatçılar Təhsil Nazirliyində məzunların elmi potensial/əqli mülkiyyət bazasına daxil ediləcək, həmçinin tədqiq olunmuş sahə istiqamətində görüləcək işlərin gerçəkləşməsində məsləhətçi qismində iştirak etmək imkanı əldə edəcəklər;
5. Tədqiqatçılara yüksək keyfiyyətli tədqiqat layihələrinin beynəlxalq nüfuzlu elmi jurnallarda məqalə formasında çap olunması istiqamətində nəşriyyatlar ilə əlaqə yaratmaqda köməklik göstəriləcək.

**Mövzular**[1]

Milli təhsil strategiyasının tətbiqinə yardım etmək məqsədilə, *Təhsil Siyasəti (Təhsil strategiyası) üzrə tədqiqat* layihələrinin aşağıdakı mümkün istiqamətləri üzrə mövzular təklif olunur[2]:

[1] *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasından irəli gələn sahələr nəzərə alınmaqla.*
[2] *Siyahıda verilən təhsil sahələrinin mövzuları məhdudlaşdırılmayıb və istənilən digər sahəni də əhatə edə bilər.*

**Təhsil məzmununun təkmilləşdirilməsi[3]:**

- Təhsil standartları
- Dərslik siyasəti
- Tədris planı
- Şəxsiyyətyönümlü yanaşma

**Təhsil verənlərin təlimi və professional inkişafı:**

- İnnovativ təlim metodları
- Təhsilverənlərin qiymətləndirilməsi
- Bərabərlik və inklüzivlik
- Öyrənməyi öyrədən yanaşması
- XXI əsrin bacarıqları və tədrisi üsulları

**Təhsildə yeni idarəetmə sistemlərinin tətbiqi:**

- Ömür boyu təhsil (formal, qeyri-formal və informal)
- Təhsilalanların qiymətləndirilməsi və öyrənməyə həvəsləndirilməsi
- İdarəetmədə ictimaiyyətin cəlb olunması
- Kadr hazırlığı, pedaqoji təhsil

**Təhsildə yeni maliyyələşdirilmə modellərinin tətbiqi:**

- Rəqabətə davamlı təhsil və diferensiallaşdırılmış əmək haqqı
- Təhsil sahəsində əmək bazarının analizi
- Təhsilverənlərin innovativ fəaliyyət üçün stimullaşdırılması

**Təhsildə texnologiya əsaslı infrastrukturun yaradılması:**

- Təhsildə İKT
- Distant təhsil
- Elektron məlumat bazaları

**İşçi qrupundan tövsiyələr:**

- Təhsil siyasəti (Təhsil strategiyası) üzrə tədqiqat layihəsini beynəlxalq təcrübə əsasında, yerli şəraitə uyğunlaşdırılmış şəkildə təqdim etməyiniz gözlənilir;
- Hər bir tədqiqat işi tədqiqat nəticələrinin təhsil siyasətinə birbaşa və mümkün təsirini aydın şəkildə izah etməli, tədqiqatın nəticəsi olaraq təhsil siyasətində nə kimi dəyişikliklərə, siyasət yanaşmalarına ehtiyac olduğunu göstərməlidir;
- Tədqiqat layihəsini yazarkən, beynəlxalq elmi məqalələrdən bəhrələnmək istəyən məzunlar üçün ADU-nun Bakı Amerika Mərkəzində tam-mətnli elektron elmi mənbələrdən (*EBSCO*, JSTOR, Oxford and Cambridge University Press, Emerald, Wiley-Blackwell və s.) ödənişsiz yararlana bilərlər. Əlavə məlumat üçün qeyd edilən elektron ünvanına sorğu göndərə bilərsiniz: ircdirector@adu.edu.az
- Tədqiqat ideyasını müzakirə edib, müəyyənləşdirməkdə maraq göstərən məzunlar Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinə müraciət edə bilərlər. Əlavə məlumat üçün qeyd edilən elektron ünvanına sorğu göndərə bilərsiniz: UMikailova@cie.az
- Konfidensiallığın qorunması və şəffaflığın təmin olunması məqsədi ilə bütün tədqiqat işləri kodlaşdırılaraq, təcrübəli tədqiqatçılar (əsasən ekspert/ məzunlar) tərəfindən qiymətləndiriləcək.

---

[3]*İstənilən məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil pilləsi üzrə.*

## Müraciət etmək üçün vacib tarixlər

- Abstrakt/müqəddimələrin təqdim olunması üçün son tarix: **09 mart, 2014–cü il**
- Qəbul edilmiş müqəddimələrin statusu haqqında elanın verilməsi: **17 mart, 2014-cü il**
- Tamamlanmış işin təqdim olunması üçün son tarix: **05 may, 2014 –cü il**
- Təqdimatçıların ilkin dinlənilməsi: **20 may, 2014 –cü il**
- Forumun tarixi: **20 iyun, 2014-cü il**

## Tədqiqat müraciətlərinə tələblər

### *I. Abstrakt / Müqəddimə üçün meyarlar*

**Həcm:** 1 səhifə (maksimum 300 söz)
**Dil:** Azərbaycan dili/ ingilis dili/ rus dili

**Format və məzmun:**

- Times New Roman şrifti, 12 ölçüdə, tək-aralıqlı
- Müəllifin ad(lar)ı, vəzifəsi, təmsil etdiyi təşkilat və email
- Mövzunun əvvəlində üç açar söz
- Tədqiqat üzrə mövzuları aydın şəkildə Təhsil Strategiyası ilə əlaqələndirmək
- Tədqiq olunan sahəyə innovativ yanaşmaq
- Tədqiqatı nəzərdə tutulmuş son müraciət tarixinə qədər tamamlamaq
- Tədqiqatın məqsədi, metodologiyası, ehtimal edilən nəticələri qeyd etmək
- Beş əsas istinad əlavə etmək

**Əsas qiymətləndirmə kriteriyaları:**

- Mətnin aydınlığı
- Tədqiqat obyektinin əhəmiyyətliliyi
- Akademik yanaşma

**Göndəriləcək ünvan:** Məktubun mövzu hissəsinə “Məzunların 3-cü Təhsil Forumu üçün Abstrakt” və adınızı qeyd edərək, ilkin layihə təklifinizi qısa tərcümeyi hal/CV ilə birlikdə **09 mart, 2014–cü il** tarixdən gec olmamaq şərti ilə göstərilmiş elektron ünvanlara göndərməyiniz xahiş olunur: Edforum@aaa.org.az, cc: Vali.Huseynov@fulbrightmail.org və Radsky.Vitaly@gmail.com.

### *II. Tamamlanmış tədqiqat layihəsi üçün meyarlar*

**Həcm:** Maksimum 10 səhifə (qrafiklər və ədəbiyyat siyahısı daxil olmaqla)
**Dil:** Azərbaycan dili / ingilis dili/ rus dili

**Məzmun və Format:**

- Times New Roman şrifti, 12 ölçüdə, tək-aralıqlı
- Müəllifin adı/ları, vəzifəsi, təmsil etdiyi təşkilat və email ilə abstrakt (maksimum 300 söz)
- Mövzunun əvvəlində üç açar söz

- Tədqiqatın məqsədi, metodologiyası, nəticə və tövsiyyələri

**Qiymətləndirmə kriteriyaları:**

- Tədqiqat metodologiyasının aydınlığı və uzlaşması
- Tədqiqat obyektinin əhəmiyyətliliyi
- Akademik / obyektiv yanaşma
- Mətnin dolğunluğu və axıcılığı
- Təhsil Strategiayasının prioritet istiqamətlərinə töhfə
- Təkliflərin innovativliyi
- Tövsiyələrin tətbiq yönümlü olması

**Göndəriləcək ünvan:** Məktubun mövzu hissəsinə "Məzunların 3-cü Təhsil Forumu üçün Tam Tədqiqat Layihəsi" və adınızı qeyd edərək, tamamlanmış layihə təklifinizi **05 may 2014-cü il** tarixindən gec olmayaraq göstərilmiş elektron ünvanlara göndərməyiniz xahiş olunur: Edforum@aaa.org.az və cc: Vali.Huseynov@fulbrightmail.org və Radsky.Vitaly@gmail.com.

**Təqdimatçılar üçün tələblər**

- Təqdimatların keyfiyyətini təmin etmək məqsədilə Forumdan bir ay öncə dəstəklənən təqdimatçıların dinlənilməsində iştirak etmək;
- Təqdimata 15 dəqiqə, sual-cavaba 10 dəqiqə ayırmaqla, cəmi 25 dəqiqə ərzində çatdırmaq;
- Təqdimatlarda PowerPoint proqramı və ya başqa vizual vasitələrdən istifadə etmək.

**Əlaqə**

Forum ilə bağlı hər hansı bir sual və ya təklifiniz olduğu halda, Forumun koordinatoru Vəli Hüseynov ilə əlaqə saxlaya bilərsiniz: vali.huseynov@fulbrightmail.org, Tel: (+99412) 437 13 46.

Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi ilə əlaqə üçün ictimai əlaqələr üzrə koordinator Eltac Muradlı ilə əlaqə saxlaya bilərsiniz: emuradli@cie.az, Tel.: (+99412) 498-6043 (daxili: 27).